Ağa Məhəmməd şah Qacar bədii əsərlərdə

Şirvani Ədilli

BAO Mərkəzi Şurasının üzvü

(əvvəli ötən sayımızda)

Ağa Məhəmməd xanın çox bacarıqlı və müdrik bir hərbi sərkərdə olduğu, hər bir döyüşdən öncə bütün şəraiti, o cümlədən düşmənin gücünü, təbii şəraiti və s. çox ciddi şəkildə nəzərə aldığı, burada öz elmi biliklərindən də yararlandığı əsərin əvvəlindən axırına dəfələrlə təsvir olunur. Məsələn, Əli Murad xan Zəndin "Mən təsəvvür etmirəm ki, bir xacə o qədər qüvvətli olsun ki, Zənd şahlığının dayaqlarını titrətsin..."deməsinə müttəfiqləri belə cavab verirlər (4, s.240):

"-Siz Ağa Məhəmmədi yaxından görsəniz, bilərsiniz ki, bu adam çox ciddi və ləyaqətlidir. Sizin təsəvvür etdiyinizdən qat-qat ləyaqətlidir. O, hər səhər ...alaqaranlıqdan əsgərlərini oyadıb hərbi məşqə aparır. Sahibmənsəblərinə deyir ki, məşq etməmiş bir əsgər müharibə meydanında ölüdən fərqlənmir... Müharibədə yaxşı nişan ala bilməyən əsgərin əlindəki tüfəng dəyənəkdən fərqlənməz.Biz bilmirik bu xacə bütün bunları hardan öyrənib və onun müəllimi kim olub...".

Əsərin başqa bir yerində Əli xan Əfşarın daAğa Məhəmməd xanınhərbi bacarığını düzgün qiymətləndirmədiyi göstərilir (4, s.355-356):

"Əli xan Əfşar ...Qacar barəsində yanılmışdı, o elə xəyal edirdi ki, başqa xacələr kimi Ağa Məhəmməd xanın da işi-gücü yemək, qarnını doldurmaqdı. Əli xan bir həqiqəti anlamamışdı ki, Ağa Məhəmməd xan o düşünən kimi olsaydı, Astrabad, Mazandaran, Gilan və İsfahanı tuta bilməzdi. Qacar xanı bacarıqlı hərbi sərkərdə olmasaydı, zabitlər heç vaxt onun əmrlərini icra etməzdilər"

Romanda Ağa Məhəmməd xanın öz soyuna-kökünə bağlı olduğu, türklərlə türkcə danışdığı, fars əmirlərinin isəonu özlərinə yad hesab etdiyi göstərilir. Məsələn, əsərin bir yerində Lütfəli xan Zəndə həmyerlisi bu sözləri deyir (4, s. 444):

"Biz farslar razı olmarıq ki, bir Qacar bizə şahlıq etsin... Mən Zəndiyyə sülaləsinin şahlığına razıyam, onagörə ki, özümüzdəndir, lakin Qacarlar bizə yaddırlar və mən onların səltənəti ilə barışa bilmərəm".

Əsərdə Ağa Məhəmməd xanın kitab oxumağı sevən, daim mütaliə ilə məşğul olan, hərtərəfli və dərin elmi biliklərə malik bir şəxsiyyət olduğu da dəfələrlə vurğulanır. Məsələn, onun kitaba münasibəti belə təsvir olunur (4, s.159):

"Ağa Məhəmməd xan kitablardan heç vaxt ayrılmırdı, müharibələrdə də özü ilə bir neçə kitab götürürdü və gecələr oxuyurdu. Kitaba məhəbbəti də ona anası Ceyran aşılamışdı. Şahlığa çatandan sonra da, kitaboxuyanları yatmazdan qabaq ona mütləq kitab oxuyardılar, hətta ömrünün son gecəsində belə yatmazdan qabaq onun üçün kitab oxudular".

Ağa Məhəmməd şahın tibbi biliklərinində nə dərəcədə dərin olduğu və öz sağlamlığının qeydinə necə qaldığı əsərdə bu cür açıqlanır (4, s.174):

"Ağa Məhəmməd şah cavan yaşlarında çox gözəl olub, vücudunun çevikliyini ömrünün axırına kimi qoruyub. O, gigiyena haqqında biliyi ilə öz zəmanəsinin adamlarından iki əsir irəlidəidi.Nəfsinin qabağını elə almışdı ki, bir tikə belə artıq yeməzdi. Həmişə öz yeməyini tərəzidə çəkərdi ki, artıq yeməsin. ...öldürülən günədək vücudu öz çevikliyini saxlamışdı, bədəni iyirmi yaşlı cavanın əndamına oxşayırdı".

Əsərin başqa bir yerində də şahın necə pəhriz saxlaması haqqında danışılır(4, s.588):

"Ağa Məhəmməd şah xüsusi rejimlə dolanardı. Az yeyərdi, ömrünün axırlarında bitki yeməkləri ilə keçinərdi..."

Buradan Ağa Məhəmməd şahın öz nəfsini boğmağı bacaran, çox iradəli və müdrik bir insan olduğu məlum olur.

Müəllif Ağa Məhəmməd şahı dövrününbir alimi kimi qiymətləndirir, onun niyə kitab yazmamasını isə belə izah edir (4, s.220-221):

"Baxmayaraq ki, Ağa Məhəmməd xan alim idi, ancaq ondan bir kitab belə qalmamışdır. Çünki Qacar xanı o əndazədə şahlıq arzusunda idi ki, vaxtını kitab yazmağa sərf edə bilmirdi. Ağa Məhəmməd xan Kərim xan Zəndin yanında əsir olduğu on altı ildə kitab yazsaydı, çox ehtimal ki, qiymətli külliyyat qoyub gedərdi".

Romanda Ağa Məhəmməd şahın öz dövrünə görə, yəni o dövrün standartları ilə götürüldükdəədalətli bir dövlət başçısı olduğu müxtəlif tərəflərdən göstərilir. Məsələn, Ağa Məhəmməd xan hətta ölüm cəzasına məhkum etdiyi müharibə düşməninin övladlarına təqaüd kəsir. Belə ki, xan əsir etdiyi müharibə düşməni Qara Məhəmmədquluyadeyir (4, s. 295):

- ...mənimlə vuruşub və əsir düşübsənsə də, səni buraxardım, ancaq məni qətlə yetirməyə qatil tutduğun üçün cəzalanmalısan. Ölümünü özün seç.

Bir az söhbətdən sonra xan məhkumdan son vəsiyyətini soruşanda məhkum deyir (4, s. 296):

"- ...mənim ürəyim xırda uşaqlarıma yanır, onlar məndən sonra yolçuluq edəcəklər".

Ağa Məhəmməd xan deyir(4, s. 926):

- Övladlarının dolanışığını öhdəmə götürürəm. Laricanda olan əmlakımın bir qismini onlara təqaüd ayıraram.

Müəllif Ağa Məhəmməd şahın xalqa əliaçıq, xidmətlərin mükafatını verənbir hökmdar olduğunu misallarlaaçıqlayır və bu cəhətdən onun Nadir şahdan üstün olduğunu vurğulayır (4, s.343):

"Ağa Məhəmməd xan ...öldürülənlərin ailəsinə təqaüd kəsdi. O, təyin etdiyi maaşı səliqəylə həmin şəxsin ömrünün axırına kimi ödəyirdi. Qacar xanı ona edilən xidmətləri mükafatsız qoymazdı. Ancaq müasirlərinin yazdığına görə, Nadir şahda bu keyfiyyət yox idi".

Aşağıdakı mətndə müəllif şahın əliaçıqlılığı, rəhmdilliyi, dövlət idarəçiliyində insaflı və ədalətli olması haqqında daha geniş açıqlama verirr (4, s. 587-588):

"Ağa Məhəmməd şah Mustafa xanın Şamaxıda olan bütün əmlakını zəbt etdi, əsgərlərin ənamını isə öz cibindən verdi. Qacar xanının bütün şahlığı dövründə belə şey görünməmişdi. Əhali qarət olunmasın deyə o əsgərlərin ənamını özü verirdi. Sərdar da onu əsgərlər arasında bölüşdürürdü ki, etiraz səsləri ucalmasın. O, ömrünün axırlarında vergi barəsində əhalini heç çətinə salmırdı. Ölkənin hansı bölgəsində fəlakət üz versəydi o il həmin yer camaatını vergidən azad edərdi. Əgər zəruri xərc irəli gəlsəydi, varlılardan zorla pul almazdı, öz əli altında işləyib varlananların malına göz dikməzdi. İranın adi camaatı onun dövründə zülm görmədi. Bu yazılanların mənbəyi və məxəzi Avropa səyyahlarıdır. ...bu məsələdə bir xüsusi marağı olmayan əcnəbi səyyahlarına inanmamağa əsas yoxdur"....Avropa tarixçiləri və səyyahları ...şah Qacarı olduğu kimi təsvir edirdilər. Onun qəddarlığından danışdıqları kimi, camaata mülayim bir padşah olduğunu söyləyirdilər..."

Aşağıdakı mətndə isə müəllif bu barədə fikirlərini daha aydın şəkildə ifadə edərək tamamlayır(4, s.619-20):

"...hökumət adamlarının məvacibləri müntəzəm surətdə ödənilirmiş. Əgər Qacar xanı xəsis olsaydı, saray adamlarının mallarına göz dikərdi, ancaq onun on səkkiz illik şahlığı dövründə bir dəfə də olsun, belə hadisə görünmədi. Ağa Məhəmməd şah Qacar ədalətli hökmdar idi. Heç bir günahı cəzasız, heç bir xidməti ənamsız qoymazdı... Bütün dövrlərin anlayışına görə Ağa Məhəmməd şah Qacar ədalətli hökmdar idi. ...Alimlər arasında xüsusi hörməti var idi. Ətrafındakılara həmişə şübhə ilə yanaşardı, ancaq səbəbsiz heç kimi incitməzdi. Onun yerinə hər kəs uşaq yaşlarından cürbəcür təhqirlərə, məhrumiyyətlərə məruz qalsaydı, hamıya qarşı mərhəmətsiz olardı. Ağa Məhəmməd şah Qacarın rəhimsizliyi o zamanın rəsminə görə olub ondan kənara çıxmırdı. ...o, qulluqçularının maaşlarını müntəzəm ödəyirdi. Maaşlar şahın öz cibindən ödənilirdi. ...Qacar maliyyə məsələlərində çox səliqəli idi və xəsislik etməzdi".

Bununla bərabər müəllif şahın bəzən amansız olduğunu da qeyd edir və bununbir səbəbi kimi məhz onun fiziki çatışmazlığını və bu çatışmazlığa görə təhqirlərə məruz qalmasını göstərir(4, s.414):

"Ağa Məhəmməd xan təqdirəlayiq sifətlərinə və alicənablığına baxmayaraq xacəliyi ucundan gizli təhqirə və həcvə məruz qalırdı. Bu, onun ürəyində bir məlamət düyünü əmələ gətirmişdi, inkar etmək olmaz ki, onun bəzi amansızlıqları, bu ümidsiz dərdlə bağlı idi. Günahkar adam itaətlə onun qəzəbini söndürəndə Ağa Məhəmməd xan güzəşt edib onun qətlindən keçərdi".

Müəllif şahın Kirmanda və Tiflisdə törətdiyi qarət və qətliamın onun müsbətcəhətlərinə tarix boyu kölgə salmış olduğunutəəssüflə qeyd edir və bunun səbəbini heç cür izah edə bilmir. Əsərdə şahın Kirmanda törətdiyi qətliam haqqında bu fikirlər deyilir (4, s.489):

"Qacarın Kirman əhalisini kor eləməsi bitərəf Qərb tarixçiləri üçün bir müəmma olaraq qalır. ...Əgər Ağa Məhəmməd xan Qacarın Kirman əhalisini kor etməkdə məqsədi tarixdə ad qoymaq idisə, o öz istədiyinə çatdı, bu əməli bütün yaxşı cəhətlərinin üzərinə elə kölgə saldı ki, indi Şərqdə Ağa Məhəmməd xan Qacarı bir alim kimi tanımırlar. Heç kim demir ki, o, iradəli, savadlı, hətta səxavətli adam olub. Ağa Məhəmməd xan ilk adam idi ki, Nadir şahdan sonra İranı vahid bir ölkə halına saldı. Ondan söz düşəndə hər şeydən qabaq Kirman əhalisini kor etməsi xatırlanır.Onun Kirman faciəsinə qol qoymağı, adını şərq tarixində elə ləkələdi ki, bu ləkə heç vaxt silinmədi. Özündən sonra gələn xələfləri ...də nə qədər çalışdılarsa Kirman faciəsinin qanlı ləkəsini yaddaşlardan silə bilmədilər".

Lakin əsərin başqabiryerində müəllifcavab tapmadığı bu sualı özü də cavablandırır, yəni Kirman qətliamının törədilməsinin səbəbini izah edir(4, s.588):

"Ağa Məhəmməd şah öz xacəliyindən ruhi əzab çəkirdi, bu nöqsanı onun üzünə vuranın qanını tökərdi. Kirman müharibəsində kirmanlılar Ağa Məhəmməd şahı təhqir edib, çox yaraşmaz sözlər dedilər. Bütün təhqirlər də onun xacəliyi barəsində deyilirdi. Zabit və əsgərlərin gözünün qarşısında, onların qulaqları eşidə-eşidə söyüşləri, tənələri yağış kimi yağdırırdılar. Bədbəxt şah odsuz-ocaqsız yanır, tüstüsü təpəsindən çıxırdı. Ancaq əlindən bir şey gəlmir, təhqirlərin qabağını ala bilmirdi. Mühasirə müddətində onun batinində Kirman əhalisinə qarşı böyük ədavət əmələ gəlmişdi. Kirmana qələbə çalandan sonra fərman verdi ki, bütün Kirman kişilərinin gözü çıxarılsın".

(ardı gələn sayımızda)